Bakı Biznes Universitetinin beynəlmiləlləşmə siyasəti

2024–2028

1 Ümumi müddəalar

1.1. Bakı Biznes Universitetinin (bundan sonra BBU və ya Universitet) Beynəlmiləlləşmə siyasəti təhsil, elmi tədqiqat və idarəetmədə beynəlxalq əməkdaşlığa dair institusional prinsipləri və öhdəlikləri müəyyən edir. Siyasətin məqsədi təhsilin və tədqiqatın keyfiyyətini yüksəltmək, tələbə və əməkdaşların beynəlxalq akademik imkanlarını genişləndirməkdir.

1.2. Siyasət "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn vəzifələrin həyata keçirilməsi məqsədilə, digər müvafiq normativ hüquqi aktlara, Universitetin Nizamnaməsinə və 2024–2028-ci illər üzrə Strateji İnkişaf Planına (SİP) uyğun hazırlanmışdır. BBU-nun 2019–2023-cü illər üzrə beynəlmiləlləşmə siyasətinin tətbiqi təcrübəsi nəzərə alınmışdır.

1.3. Siyasət Strateji İnkişaf planının 6-cı strateji hədəfinin beynəlxalq əlaqələrin genişləndirilməsi (6.1), əcnəbi tələbələrin qəbulu (6.2), beynəlxalq layihələrdə iştirak (6.3), elmi tədqiqatın beynəlmiləlləşməsi (6.4) və təhsil proqramlarının beynəlxalq keyfiyyət standartlarına uyğunlaşdırılması (6.5) prioritetlərini əsas götürür.

1.4. Bakı Biznes Universitetinin beynəlmiləlləşmə siyasəti tələbələri, akademik və inzibati heyəti beynəlxalq mühitə hazırlamaq, akademik azadlığı, tolerantlığı, müxtəlifliyi, akademik və şəxsi inkişafı hər zaman ön planda tutaraq birlikdə öyrənmə, bilik istehsal etmə, əldə edilən bilikləri bölüşmək, cəmiyyətə dəyər qatmaq və ümumbəşəri dəyərləri özündə birləşdirmək məqsədi daşıyır.

2 Əsas prinsiplər

2.1. BBU beynəlmiləlləşmədə akademik keyfiyyəti, bərabər imkanları, inklüzivliyi, şəffaflığı, akademik azadlığı və dürüstlüyü əsas tutur. Beynəlxalq əməkdaşlıq qarşılıqlı faydaya, mədəni müxtəlifliyə hörmətə və tərəfdaşların akademik etibarlılığına əsaslanır.

2.2. Universitet beynəlxalq imkanlardan yararlanmaqda tələbələrə və əməkdaşlara ədalətli münasibəti, zəruri məlumatların əlçatanlığını və şəxsi məlumatların qorunmasını təmin edir.

3 Beynəlxalq akademik mobillik

3.1. BBU tələbələrin, akademik və inzibati heyətin beynəlxalq mübadiləsini təhsilin keyfiyyətinə və peşəkar inkişafa töhfə verən əməkdaşlıq forması kimi dəstəkləyir.

İştirakın təşviqi, məlumatlandırma və seçimdə şəffaflıq və bərabər əlçatanlıq Universitetin əsas öhdəlikləridir.

3.2. Universitet tələbə mobilliyində təlim nəticələrinin uyğunluğunu və uğurla əldə edilmiş kreditlərin əvvəlcədən razılaşdırılmış şərtlərlə tanınmasını əsas götürür. Akademik tanınma Avropa Kredit Transferi və Toplanması Sisteminə (AKTTS) və milli tələblərə uyğun təmin edilir. Heyət mobilliyində qazanılan təcrübənin tədrisə və idarəetməyə töhfəsi təşviq olunur.

4 Əcnəbi təhsilalanlara münasibətdə siyasət

4.1. BBU əcnəbi tələbələrin cəlbini akademik imkanlarına və təhsil keyfiyyətinə uyğun həyata keçirir; qəbulda şəffaflığı, məlumatların düzgünlüyünü və tələbə hüquqlarının qorunmasını təmin edir. Beynəlxalq tanıtım və tələbə cəlb edən tərəfdaşlarla münasibətlər bu prinsiplərə əsaslanır.

4.2. Universitet əcnəbi təhsilalanların dil və akademik hazırlığını, sosial uyğunlaşmasını və universitet həyatında bərabər iştirakını dəstəkləyir. Hazırlıq təhsili və əsas təhsil proqramları üzrə şərtlərin aydınlığı, oriyentasiya və məsləhət xidmətlərinin əlçatanlığı təmin olunur.

4.3. Təhsil proqramları, fənlər, qəbul və tədris qaydaları haqqında məlumatların ingilis dilində də əlçatanlığı təmin edilir. Əcnəbi tələbələrin ehtiyacları və rəyləri onlara uyğunlaşdırılmış sorğular vasitəsilə öyrənilir və göstərilən dəstəyin keyfiyyətində nəzərə alınır.

5 Beynəlxalq akademik heyətə münasibətdə siyasət

5.1. BBU əcnəbi professor və müəllimlərin tədrisə cəlbini akademik mühitin zənginləşdirilməsi və beynəlxalq təcrübənin paylaşılması vasitəsi kimi qəbul edir. Akademik uyğunluq, pedaqoji səriştə və tədris dilində hazırlıq əsas seçim prinsipləridir.

5.2. Universitet beynəlxalq akademik heyətin əyani və onlayn tədrisə töhfəsini, yerli müəllimlərlə əməkdaşlığını və təcrübə mübadiləsini dəstəkləyir; fəaliyyəti üçün zəruri akademik və təşkilati şəraiti təmin edir.

6 Beynəlxalq tədqiqatçılara münasibətdə siyasət

6.1. BBU xarici tədqiqatçılarla birgə elmi fəaliyyətə, beynəlxalq layihələrə, həmmüəllifli nəşrlərə və elmi tədbirlərdə iştiraka üstünlük verir. Bu əməkdaşlıq Universitetin tədqiqat istiqamətlərinə uyğunluğu və elmi keyfiyyətə töhfəsi əsasında inkişaf etdirilir.

6.2. Universitet gənc tədqiqatçıların beynəlxalq elmi mühitə inteqrasiyasını dəstəkləyir. Əməkdaşlıqda elmi etika, müəlliflik, əqli mülkiyyət və tədqiqat məlumatlarının qorunması təmin olunur.

7 Beynəlxalq tərəfdaşlıqlar şəbəkələr və layihələr

7.1. BBU xarici universitetlər, beynəlxalq təhsil təşkilatları və şəbəkələrlə davamlı akademik əlaqələri dəstəkləyir. Tərəfdaşlıq və üzvlükdə SİP-ə uyğunluq, qarşılıqlı akademik fayda və əməkdaşlığın nəticəliliyi əsas götürülür.

7.2. Universitet beynəlxalq təhsil və institusional inkişaf layihələrində iştirakı, xarici təcrübənin mənimsənilməsini və layihə nəticələrinin universitet fəaliyyətinə inteqrasiyasını təşviq edir. Beynəlxalq görünürlük və reytinqlərdə təmsilçilik etibarlı akademik nəticələrə və düzgün məlumatlara əsaslanır.

8 Təhsil proqramlarının beynəlmiləlləşməsi və ikili diplomlar

8.1. BBU təhsil proqramlarının beynəlxalq keyfiyyət standartlarına uyğunluğunu, xarici təcrübə ilə müqayisəsini və beynəlxalq akkreditasiyasını dəstəkləyir. Proqramlarda beynəlxalq və mədəniyyətlərarası məzmunun, qlobal bacarıqların və inklüziv öyrənmə imkanlarının inkişafına üstünlük verir.

8.2. Xarici dildə tədris proqramlarının inkişafı müəllimlərin hazırlığı, tələbələrin dil səriştəsi və tədris resurslarının yetərliliyi ilə əlaqələndirilir. Tədris dilindən asılı olmayaraq akademik keyfiyyətin qorunması Universitetin öhdəliyidir.

8.3. İkili diplom proqramları tərəfdaşların akademik uyğunluğu, proqram keyfiyyəti və tələbə hüquqlarının qorunması prinsipləri əsasında dəstəklənir. Proqramların təşkili, kreditlərin tanınması və diplomların verilməsi milli qanunvericiliyə, AKTTS-ə və tərəfdaşlarla bağlanmış müqavilələrə uyğun təmin olunur.

9 İdarəetmə və resurs təminatı

9.1. Beynəlmiləlləşmə Universitetin ümumi idarəetmə və keyfiyyət təminatı sisteminə inteqrasiya olunur. İcranın əlaqələndirilməsi beynəlxalq əlaqələr üzrə prorektora, müvafiq fəaliyyətlər isə beynəlxalq əlaqələr şöbəsinə, fakültələrə və aidiyyəti struktur bölmələrə səlahiyyətləri daxilində həvalə edilir.

9.2. BBU Siyasətin icrası üçün maliyyə və insan resurslarının, infrastrukturun və informasiya təminatının ayrılmasını institusional məsuliyyət kimi qəbul edir. Resursların yetərliliyi və səmərəli istifadəsi mütəmadi qiymətləndirilir.

10 Keyfiyyətin təminatı və siyasətin yenilənməsi

10.1. BBU beynəlmiləlləşmənin nəticələrini və idarəetmənin səmərəliliyini mütəmadi qiymətləndirir. Mübadilədə iştirakın dinamikası, akademik tanınma, əcnəbi tələbə və heyətin iştirakı, tərəfdaşlıqların və proqramların nəticələri, resurs təminatı və iştirakçı rəyləri təkmilləşdirmə qərarlarının əsasını təşkil edir.

10.2. Siyasətin aktuallığı illik qiymətləndirmə əsasında nəzərdən keçirilir. SİP, qanunvericilik və institusional ehtiyaclardakı dəyişikliklər nəzərə alınmaqla yenilənməsi və Elmi Şuranın qərarı ilə təsdiqi təmin olunur.